Nurəngiz QARAYEVA *

AZƏRBAYCAN FİLMLƏRİNDƏ ƏKS OLUNMUŞ ƏNƏNƏVİ MƏZAR DAŞLARI

Açar sözlər: milli, film, məzar, ənənəvi, qəbir, abidə
Key words: national, film, tomb, traditional, grave, monument
Ключевые слова: национальный, фильм, погребение, традиционный, могила, памятник

Azərbaycan filmlərində zəngin mədəni irsimiz, dini dünyagörüşü, ənənəvi məzar daşları bədii şəkildə təcəssüm olunmuşdur. Türk-müsəlman məzar daşlarının ayrılmaz tərkib hissəsi olan Azərbaycan ənənəvi məzar daşları maddi və mənəvi mədəniyyətimizin əsas tərkib hissəsindən biridir. Bir çox mütəxəssislərin tədqiqatlarında məzar daşları və onlarla bağlı dini inamlar məsələsi yer almışdır. Ələsgər Ələkbərova görə, yalnız "ölümündən sonra insan öz daşını almır", həm də hər bir insanın həyatda öz daşı var. Daş insan ürəyinin qabı hesab olunur, həm də tam olaraq insanın özünün əvəzləyicisi hesab edilir [5, s.105-105].

Maddi mədəniyyətimizin əsas təbliğat vasitələrindən biridə Azərbaycan filmləridi. "Dədə Qorqud", "Nizami", "Qaraca qız", "Yeddi oğul istərəm", "Axırıncı aşırım" "Həyat bizi sınayır", "Torpaq, dəniz, od, səma" "Babamızin babasının babası" bədii filmlərində məzarlıqların və başdaşıların əks olunduğu kadrlar təqdim edilmişdir. "Dədə Qorqud" filmində məzarlıq, məzarlıqda şaquli vəziyyətdə olan müxtəlif stel daşları nəzərə çarpır. Stel və ya stela şaquli vəziyyətdə basdırılmış və hündürlüyü enindən uzun böyük daş abidədir (daş əsərdir). Stellərin fərqli şəkillərdə müxtəlif növləri vardır. "Dədə Qorqud" filmində görünən stellər məzar steli adlanır. Bu stel daşları əsasən insan şəklindədir, yalnız kişiyə aiddir. Bu abidələr "balbal" və "daş baba" adlandırılır. Üzərində heç bir yazı yoxdur. Arxaik təsəvvürə əsasən ölənin ruhu stel daşına keçir. Stel torpağa basdırılmış menqir daşların qalıq formasıdır. Çox vaxt stellər yıxılmış vəziyyətdə olur. Şaquli şəkildə basdırılmış, daş abidələrə oxşayan stellər

* **Qarayeva Nurəngiz** - AMEA Milli Azərbaycan Tarixi Muzeyinin "Etnoqrafiya" şöbəsinin kiçik elmi işçisi Email:qarayeva1972@bk.ru

də var. Belə daşlara Qarabağ düzənliyində və Kiçik Qafqazın dağətəyi hissəsində rast gəlinir [2,s.405]. Bu daş heykəllər qədim dini təsəvvürlər, xüsusilə daş kultu ilə bağlı məlumatları özündə cəmləşdirmişdir. Məlumdur ki, türk xalqlarının yaşadığı geniş arealda yayılan balballara daha çox Qazaxıstan və Altayda təsadüf olunur. Eranın VIII-IX əsrlərinə aid bu heykəllər Altaydan Volqaboyuna qədər geniş bir ərazidə tapılmışdır. Tədqiqatçıların yekdil fikri belədir ki, bu heykəllər türkdilli tayfalara aiddir və döyüşlərdə həlak olmuş igidlərin qəbirlərinin üzərinə qoyulmuş abidələrdir [7, s. 21].

Yeri gəlmişkən qeyd edək ki, MATM ekspozisiyasında Şamaxı, Tovuz bölgələrindən gətirilmiş balballar nümayiş olunur. Azərbaycan ərazisində mövcud olan balballar ümumtürk mədəniyyətin tərkib hissəsi kimi xalqımızın dini mifoloji dünyagörüşünü özündə əks etdirir. Geniş və hərtərəfli auditoriyaya malik olan filmlərdə belə maddi mənəvi dəyərlərin əksi olduqca əhəmiyyətlidir. Filmdəki insan şəklində olan daşları nəzərdən keçirərkən sanki canlı insanların daşa döndüyünü düşünmək olar. Xalq arasında deyilir ki, öldü daşa döndü [8, s.50]. Azərbaycanlıların arxaik təsəvvürlərinə görə daş insanın taleyini həll edir [8, s.18]. Ümumiyyətlə, tədqiqatçıların əsərlərində qədim və orta əsrlər dövrünə aid məzar daşları və onlarla əlaqədar olan daş kultu haqqında məlumatlar vardır.

Tunc dövründə ölünü daşdan düzəldilmiş tabutlarda dəfn etmək adəti geniş yayılmışdır. Bundan əlavə bir çox qəbirlərdə ölünün yanında hər hansı alətin, yaxud sadəcə bir daş qoyulması halları da müşahidə edilir. Bütün bunlar qədim azərbaycanlıların daşa olan inamları ilə bağlıdır [6, s.98]. Digər kultlardan fərqli olaraq daş kultu ilə bağlı önəmli tarixi abidələr mövcuddur. Qədim azərbaycanlıların animistik təsəvvürləri əsasən insanla, təbiətlə, xüsusən ruhla bağlı olmuşdur. Məzarda yerləşən daş qutulardakı dəlikləri də qədim insanın animistik baxışları ilə əlaqələndirmək olar. Daş azərbaycanlıların, eləcə də, dünyanın bir çox xalqlarının arxaik təsəvvüründə ruhun məskəni sayılmış və şübhəsiz ki, qədim etiqadlarda ruh haqqında təsəvvürlər əhəmiyyətli olmuşdur (2, s.405). "Dədə Qorqud" filmində göstərilən insan şəklində məzar daşlarını əcdad kultu ilə də bağlamaq olar. Məlumdur ki, Azərbaycanda qismən əcdad kultu mövcud olmuşdur. "Qaraca qız" (1966) bədii filmində məzar daşını yalnız filmin sonunda, qısa kadrlarda görürük. Filmdə məzar daşı ilə bağlı informasiya xarakterli məlumat çox azdır. Belə ki, təpənin başında məzar və məzar daşı görünür. Bu məzar daşı boz rəngli olub, kiçik, uzunsov formadadır. 1982-ci ildə çəkilmiş "Nizami" bədii filmində məzar daşlarının əks olunduğu kadrlar yer almışdır. Bu başdaşıların bəziləri böyük, bəziləri kiçik ölçülü olub, boz rəngdədir. Bəziləri dik formada, bəziləri əyilmiş, bir qismi isə tamamilə çökmüş vəziyyətdədir. Filmdəki bu kadrları izləyərkən daş sənduqə diqqət cəlb edir. Təəssüf ki, "Nizami" filmində görünən bu daş sənduqəni yaxından görmək mümkün deyil. Həmçinin, sənduqənin üzərində hansı yazı və rəsmlərin olduğunu müəyyənləşdirmək çətindir. "Torpaq, dəniz, od, səma bədii filmi məzar daşlarının öyrənilməsi baxımından yetərli bilgi verir. Filmdə məzarlıq kadrlar aydın görünür. Filmi izləyərkən məzarlığın kifayət qədər böyük bir sahəni əhatə etdiyini görmək olar. Bu məzarlıqdakı başdaşıları da müxtəlif ölçülü olub, düz və ya əyilmiş formadadır. Qəbirlər isə sənduqə formalı qəbir tipidir. Məzarlıqdakı qəbir sənduqələr üzərində maraqlı şəkillər nəzərə çarpır. Boz sənduqənin yan tərəfində ağ at rəsmi aydın görünür. Mərhumun məzar daşının üzərində at rəsmi təsvir edilmişdir. Qeyd olunmalıdır ki, ağ rəngli at uğur rəmzi hesab edilir [1, s.286]. At bütün zamanlarda Azərbaycan əhalisinin təsərrüfat məişətində və mənəvi mədəniyyətində böyük rol oynamışdır. Həm də xalq arasında deyilir ki, at muraddır. Tunc dövründən etibarən atçılıq əsas nəqliyyat vasitəsi kimi daha geniş yayılmağa başlamışdır. Qafqazda atçılığın tarixinin araşdırılmasında Qobustan qaya təsvirləri daha böyük maraq doğurur. Bu təsvirlərin xeyli hissəsində müxtəlif görkəmdə at rəsmləri öz əksini tapmışdır ki, onların da yaşı dörd min ildən az deyildir [1, s.271]. İl at üstə gələndə əmin-amanlıq olar, bolluq yaranar, arzular kama yetər. Atçılıq minilliklər boyu xalqımızın məişətində mühüm rol oynamış və etibarlı heyvan sayılmışdır [1, s.286-287]. Bu məsələləri nəzərə alaraq qeyd etmək lazımdır ki, qəbirüstü məzar daşlarında tez-tez at rəsmlərinə rast gəlinməsi təsdüfi deyildir.

Azərbaycanda məzar, məzar daşlarının üzərinə mərhumun sənətinə və ya işinə uyğun şəkillərin həkk edilməsi ənənəsi olmuşdur. Bu baxımdan biz "Torpaq, dəniz, od, səma" bədii filmində verilmiş məzar daşları üzərindəki rəsmləri görə bilərik. Belə ki, filmdə mərhum çayçının məzarının üzərində samovar, dərzinin qəbrində isə tikiş maşını təsviri görünür. Ümumiyyətlə, bu peşə və məşğuliyyət sahələri məişətimizdə hər zaman

mühüm yer tutmuşdur. Belə ki, qəbirüstü abidələrdə bu sənət sahələrini əks etdirən təsvirlərin üstünlük təşkil etməsi bəhs olunan sənət və peşə ustalarının vaxtilə çoxluq təşkil etməsinin işarəsidir. Filmdəki məzar daşının birində gül və yarpaqlardan ibarət rəsm diqqət çəkir. Digər qəbir daşının üzərindəki Ay və ulduz rəsmi xeyli maraq doğurur. Qeyd olunan filmdə üzərində heç bir şəkil olmayan məzar daşları da var. Vaxtilə heç bir işlə məşğul olmayan, işləri ilə camaatın yadında qalmayan mərhumların qəbir daşlarının üzərində heç bir rəsm həkk olunmur və boz rəngdə olur. Ə.Ələkbərov özünün "Buzovnada qəbir abidələri" əsərində Buzovnadakı qəbir daşlarının forma və detallarını, o cümlədən naxışlarını izah etməyə çalışmışdır. Bu barədə alim qeyd etmişdir ki, rəssam qəbirlərin bəzədilməsi üçün xalçaların düz naxışlarından istifadə etmişdir. Xalçalara aid naxışlardan əsas etibarilə qəbirlərin haşiyəsini bəzədikdə istifadə olunur. Belə ki, rəssam Şirvan xalçaları naxışlarına, əsasən də, nəbati tipli naxışlara üstünlük verir. Başdaşını bəzəyərkən rəssam ona portal şəkli verməyə çalışmış, eyni zamanda yuxarısında iki simmetrik xonça şəkli çəkmişdir [4, s.2]. Məzar daşları üzərində mərhumun həyatına, işinə və sənətinə uyğun rəsmlərin həkk edilməsi ənənəsi Azərbaycanın demək olar ki bütün bölgələrində yayılmışdır.

Qəbir daşları üzərində mərhumun peşə və sənətini əks etdirən bir sıra məişət və təsərrüfat əşyaları, silah və nəqliyyat vasitələrinin (gülabdan, sürmədan, güzgü, qayçı, daraq, möhür, qılınc, xəncər, tüfəng, rəhil, sahibsiz qalmış yəhərli at və s.) təsvirlərinə rast gəlirik [1, s.358]. Bu cəhətdən peşə ilə bağlı əmək alətlərinin (dəmirçi zindanı, misgərlik alətləri, həllac yayı, hana, həvə, kirkit və s.) təsvirinə daha çox yer verilmişdir [1, s.358]. Qəssab, dabbağ, misgər, zərgər, şərbaf qəbirləri təsvir olunmuş istehsal alətlərinin səciyyəsinə görə bir-birindən seçilirdi [1,s.358]. Qeyd olunmalıdır ki, rəsmlər məzar daşlarına həkkaklar tərəfindən həkk edilmişdir. Həkkaklar, başlıca olaraq, qəbirüstü abidələr (başdaşı, sənduqə) və inşaat hissələri düzəltmişlər [1, s.356]. Azərbaycanın ənənəvi həkkaklıq sənətində Şirvan-Abşeron memarlıq məktəbinə mənsub sənətkarların əl işləri diqqəti daha çox cəlb edirdi. Şirvanın xatirə abidələrinə əsasən yumşaq əhəngdaşından düzəldilən müxtəlif formalı başdaşı və sənduqədən ibarət olmaqla, həm ayrılıqda, həm də vahid kompozisiya halında təsadüf edilir [1, s.357]. Bəzən başdaşından əlavə sinədaşının aşağı hissəsində

ayaqdaşı da qoyulurdu [1, s.57]. Rəsmlərdə məzmun cəhətdən demək olar ki, müxtəliflik və ənənə nəzərə çarpır. Belə ki, qadın qəbirlərinin üzərinə əsasən tualet əşyaları, kişi qəbirlərinin üzərinə isə at, silah və s. rəsmlər həkk edilmişdir. Azərbaycanlılar adətən, ölünü dəfn etdikdən sonra başdaşı qoyurlar, Bu başdaşılar mərhumun cinsinə və sənətinə uyğun qoyulmalıdır [4, s. 2]. Şəhər və kənd məzarlıqlarında epiqrafik yazılı məzar daşları da mövcuddur. "Torpaq, dəniz, od, səma" filmindəki sənduqə formalı məzarları təhlil edərkən üzərində naxış və müxtəlif bəzək nümunələrindən ibarət olan məzar daşlarının da göründüyünü vurğulamaq lazımdır. Bu məzar daşlarının arxa hissəsində isə ərəb xətti ilə yazılar həkk edilmişdir. Bir qayda olaraq, kitabə və naxışlar başdaşının ön tərəfinə, mərhumun peşə mənsubiyyətini bildirən rəmzi rəsmlər isə yanlarına və kitabənin kənarındakı boş sahələrə həkk olunurdu [1, s.358]. Həmçinin, sənduqələrin üzərində və yanlarında mərhumun xatirəsinə həsr olunmuş epitafiya, dünya işlərinin aqibəti haqqında ibrətamiz beytlər, bayatılardan və klassik şairlərin hikmətli sözlərindən nümunələr, nəhayət abidənin kimdən yadigar olduğunu bildirən ifadələr həkk edilirdi [1, s.358]. "Yeddi oğul istərəm", "Həyat bizi sınayır" filmlərində məzarlıq və məzarlıqdakı başdaşıları görmək mümkündür. Bu məzar daşları ölçüsünə görə müxtəlifdir. Bəzən formalarında da müxtəliflik nəzərə çarpır.

"Babamızın babasının babası" filmində də ənənəvi məzar daşlarını görürük. Filmdə yalnız ağ rəngli, iri başdaşıları nəzərə çarpır. Qeyd olunan filmlərdə yer almış məzar daşlarının əksi burada yaşayan əhalinin maddi və mənəvi mədəniyyəti haqqında yetərli bilgi verməkdədir. Bu filmlərin bəzilərindən ənənəvi məzar daşları haqqında bir xeyli məlumat toplamaq olar. Bəzi filmlərdə isə sözü gedən mövzu barədə çox az məlumat cəmlənmişdir. Nədənsə rejissor onlar barədə az məlumat verməklə kifayətlənmişdir. Hər halda bu filmlərdə xalqın maddi və mənəvi irsi haqqında bir qədər geniş məlumat vermək daha məqsədəuyğun olardı. 1971-ci ildə çəkilmiş məşhur Axrıncı aşırım" filmi çəkilmişdir. Filmdə məzar daşları haqqında o qədər də geniş məlumat verilməmişdir. Təqdim olunan filmdə müəyyən qədər kənd məzarlığı və məzar daşları nəzərə çarpır. Bu məzar daşları düz vəziyyətdə olub, ağ və boz rəngdədirlər. Baş-daşılar, demək olar ki, böyük ölçüyə malikdirlər, lakin sənətkarlıq nöqteyi-nəzərindən çox sadədirlər. Məzarlıqda kiçik, həmçinin türbə formasında

olan, tavan hissəsi günbəzvarı şəkilli tikili mövcuddur. İçərisində isə digər qəbirlərdən fərqli, üzərində ərəb yazıları olan qəbir vardır. Lakin bu qəbrin başdaşısı yoxdur. (Çünki, qeyd edildiyi kimi qəbir türbə formasındadı, türbədə isə başdaşı olmur.) Kiçik ölçülü, üzəri kitab şəklindədir. Filmdən aydın olur ki, qeyd olunan qəbir uşaq məzarıdır. Adları çəkilən filmlərdə məzar daşlarının yuxarı hissəsi düz, dairəvi və üçbucaq formalı olub, forma cəhətdən müxtəliflik təşkil edirlər. R.Göyüşov yazır ki, Albaniyada qəbir tiplərinin çoxluğu bir tərəfdən tikinti materiallarının coğrafi yerləşməsi və ya mərhumun ictimai vəziyyəti ilə bağlıdırsa, digər tərəfdən əhalinin etnik tərkibi və dini dünyagörüşünün müxtəlifliyi ilə bağlıdır. Bəzən bir qəbiristanlıqda eyni dövrə aid bir neçə tip qəbrin aşkar olunması da bu fikri söyləməyə imkan verir [6, s. 89]. Milli filmlərimizi nəzərdən keçirərkən, ənənəvi məzar daşlarının həqiqətən, etnik, dini, sosial mövqe nöqteyi-nəzərdən müxtəliflik təşkil etdiyini görmək olar. Qeyd etmək lazımdır ki, bu məzar daşlarının göstərilən məsələlər baxımından fərqli cəhətləri olsa da, sənətkarlıq baxımından çox zəngin və maraqlı detalları vardır. Məzar daşlarına insan təsvirlərinin çəkilməsinə əsasən Sovet dövründə başlanıldığı ehtimal edilir. Qəbir daşlarının üzərində vəfat edən insanın şəkli ilə yanaşı, onun ölüm səbəbi və hansı sənətin sahibi olmağı ilə bağlı da məlumatlar olur [9, s.1]. Azərbaycanın İslam ölkəsi olması, İslam dininin istənilən təsviri qadağan etdiyini və qəbirüstü təsvirlərin məhz Sovet dövründə meydana gəldiyi ehtimalı diqqətə alaraq deyə bilərik ki, əslində İslam dini tam şəkildə bütün təsvirləri qadağan etmir [9, s.1]. Lakin çəkilən filmlərdə - məzar daşlarında insan şəklinə rast gəlmədik. Ənənəvi məzar daşları haqqında məlumatlar Azərbaycan xalqının əsrlər boyu yaradıb inkişaf etdirdiyi qədim mədəniyyətinin tədqiq edilməsidə istifadə olunan maddi dəlillərdir.

Filmlərdə əksini tapmış məzar daşlarının arxeoloji və etnoqrafik səpkidə araşdırılması olduqca əhəmiyyətlidir. Filmlərdə etnoqrafik və sənətşünaslıq baxımından yetərincə bilgi verən məzar daşları canlandırılmışdır. Məzar daşlarının üzərindəki maraqlı və incə detallı təsvirlər isə dövrünün zəngin sənətkarlıq cizgilərini özündə əks etdirir. Xatirə abidələrinin hazırlanması sahəsində sənət ənənələri XIX əsr və XX əsrin əvvəllərində də davam etməkdə idi. Həmin əməli təcrübə və bu sənət sahəsindəki istehsal prosesləri isə (daşçıxarma, daşyonma və həkketmə) bu gün də özünün

əhəmiyyətini itirməmişdir [1,s.358]. Maddi və mənəvi mədəniyyəti zəngin olan torpağımızda müxtəlif dövrlərə aid qəbirüstü məzar daşları tədqiq edilmişdir. Bu tədqiqatlar Azərbaycan tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb etmişdir. Azərbaycan filmlərində əks olunmuş məzar daşlarının nəzərdən keçirilməsi milli kimliyimizin, adət və ənənələrimizin öyrənilməsi baxımdan mühüm aktuallıq kəsb edir.

İstifadə olunmuş ədəbiyyat

1. MustafayevA. Daşişləmə. Azərbaycan etnoqrafiyası. 3 cilddə, I cild. B.: Şərq – Qərb, 2007.
2. Quliyeva R. Qədim dini etiqadlar. Azərbaycan etnoqrafiyası. 3 cilddə, III cild. B.: Şərq – Qərb, 2007.
3. Алекперов А.К. Культы Азербайджана и антирелигиозная работа. Исследования по археологии и этнографии Азербайджана. Баку: АН Аз ССР, 1960
4. Алекперов А.К. Могильные памятники в Бузовнах (По искусству Азербайджана) // ИООИА, № 5, 1928,
5. Əsədli K. Ə.Ələkbərovun əsərlərində arxeologiya və etnoqrafiya elmlərinin problemləri. Bakı: Elm, 2011.
6. Göyüşov R. Azərbaycan arxeologiyası. Bakı: İşıq, 1996.
7. Muxtarova Ə. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər).Bakı: Adiloğlu, 2008.
8. Кулиева Р.Г. Культ камня в Азербайджане (Археолого-этнографическое исследование). Б.: Элм, 2007. 9. https://chai-khana.org/az/muslman-mzarlari-azrbaycanda

Нурангиз Гараева

ОТРАЖЕНИЕ ТРАДИЦИОННЫХ НАДГРОБНЫХ КАМНЕЙ В АЗЕРБАЙДЖАНСКИХ ФИЛЬМАХ

РЕЗЮМЕ

В отечественных фильмах, являющихся одним из основных средств пропаганды материальной культуры нашего народа, надгробные камни получили художественное отражение. В таких национальных кинолентах, как «Свет погасших костров», «Жизнь испытывает нас», «Желаю семь сыновей», «Дед деда нашего деда», «Последний перевал», «Земля, море, огонь, небеса» и других имеются кадры, где представлены места погребения и могильные камни. Эти надгробные

камни отличаются и по размеру и по форме. Демонстрация в кинофильмах надгробий различных эпох имеет важное значение с точки зрения изучения обычаев и традиций нашего народа.

Nurengiz Garayeva

TRADITIONAL TOMBSTONES REFLECTED IN NATIONAL FILMS OF AZERBAIJAN

SUMMARY

Films play great role in propaganda of our material culture; tombstones are reflected in these films too. Scenes with tombstones and graves are reflected in films- "Dede Gorgud," "Life Tests Us," "I Want Seven Sons," "Father of Our Father's Father," "Last Pass," "Land, Sea, Fire, and Sky" and so on. These gravestones are different for its size and shapes. The tombstones belonging to different periods and they have great importance in learning of our customs and traditions.